# ZƏNGİLAN RAYONUNUN AĞALI KƏNDİNİN ƏTRAF ƏRAZİSİNİN TƏBİİ DENDROFLORASI

**Minarə Həsənova**

*AR ETN Dendrologiya İnstitutu, Bakı*
*minare.hasanova@inbox.ru*

Zəngilan, Qubadlı və Cəbrayıl rayonları Şərqi Zəngəzur iqtisadi rayonuna daxildir. Zəngilan rayonunun torpaq-iqlim şəraiti, bioloji, ekoloji xüsusiyyətləri, dendroflorası məlum məhdudiyyətlər çərçivəsində qismən tədqiq edilib. Zəngilan rayonunun ərazisində monitorinq keçirilərək, ağac və kol bitkilərinin yayılma areallarının video və fotoşəkilləri çəkilib, meşə bitkilərinin taksasiyası araşdırıllb, bitki örtüyü təhlil edilib, bitkilərin yayılma arealları, formasiya və assosiasiyaları müəyyən edilib, antropogen və əlverişsiz iqlim amillərinin meşə fonduna təsiri araşdırılıb.

Ağalı kəndi, Oxçuçay ətraf ərazisi, Beşdəli kəndi, Keçikli, Məmmədbəyli, Dağüstü park ətraf ərazilərində tədqiqat işləri aparılıb. Zəngilan rayonu Oxçuçay ərazisinin təbii dendroflorasının bioekoloji xüsusiyyətləri araşdırılaraq, bitki növlərinin müasir vəziyyətinin tədqiqi üzrə qeydlər edilib, nadir növlərin təbii bərpasının təmin edilməsində biomüxtəlifliyin rolunun öyrənilməsi istiqamətində təhlillər aparılıb. Bitki örtüyünün taksonomik tərkibinin təhlili, bitki növlərinin introduksiya, reintroduksiya, genefondun bərpası istiqamətində tədqiqatların aparılması nəzərdə tutulmuşdur. Təbii şəraitdə biomüxtəlifliyin populyasiya vəziyyəti, təbii floranın nadir növlərinin populyasiyalarında baş verən proseslərə iqlim dəyişkənliyinin təsiri təhlil edilmişdir. Zəngilan rayonunun Oxçuçay ətraf ərazisinin dendroflorasına iqlim dəyişkənliyi təsirinin araşdırılması məqsədilə qeydlər aparılmış, bəzi bitkilər sistematik təhlil edilmiş, təsərrüfat əhəmiyyətli bitkilərdən nümunələr götürülmüşdür.

Oxçuçay ətrafı təbii bitki növlərinin təhlili, areallarda bitkilərin populyasiya vəziyyəti, ağac və kol bitkilərinin taksonomik tərkibi tədqiq edilmişdir. Palıd cinsinə aid bir neçə növün eyni arealda olması, jasmin kolunun kiçik arealı, acılıq dərman bitkisinin, ağcaqayın cinsinə aid bir neçə növün arealı müşahidə edilmişdir. Zəngilan rayonunun mərkəzində vaxtilə insanların həyətyanı sahələrində əkilmiş mədəni bitkilər demək olar ki, yabanı bir meşəyə çevrilmiş, aylant, şeytanağacı mədəni floranı sıxışdıraraq məhv etmiş, otvari kəndalaş, qaratikan kolları, mayaotu, moruq, üzüm bitkiləri keçilməz sədd yaratmışdır.

Zəngilan rayonunun Oxçuçay ətrafı bitki taksonlarının təbii arealının araşdırılması, ərazinin ekoloji vəziyyətinin qiymətləndirilməsi və antropogen təsirə məruzqalma səviyyəsinin müəyyənləşdirilməsi üzrə elmi araşdırmalar aparılıb, bitkilərin yayılma arealları dəqiqləşdirilmiş, inventarizasiyası aparılmışdır. Quru daşlı yamaclarda Oxçuçay ətraf ərazisində Qafqaz xurması (*Diospyros lotus* L.), Araz palıdı (*Quercus araxina* (Trautv.) Grossh.), Qafqaz dağdağanı (*Celtis caucasica* Willd), Şərq vələsi (*Carpinus orientalis* Mill), Kütyarpaq saqqızağacı (*Pistacia mutica* Fisch. & CA Mey.), iberiya ağcaqayını (*Acer ibericum* M. Bieb. ex Willd.), Araz qarağacı (*Ulmus araxina* Takht.), söyüdyarpaq armud (*Pyrus salicifolia* Pendula) ilə seyrək meşəliklər müşahidə edilmişdir. Dağüstü park ətraf ərazilərində sarağan, meşəliklərdə kserofit kollar, tikanlı dəvəqıran (*Atraphaxis spinosa* L.), iberiya doqquzdonu (*Lonicera iberica* M.Bieb.), xırdameyvə albalı (*Cerasus microcarpa* C.A.Mey.), ortaboy acılıq (*Ephedra intermedia* Schrenk. Et. C.A.Mey.), kol jasmini (*Jasminum fruticans* L.), pallas murdarçası (*Rhamnus pallasii* Fisch Et. C.A.Mey.) və qaratikanın (*Paliurus spina-christi*) təbii halda yayıldığı müşahisə edilmişdir. Monitorinq nəticəsində ərazinin Beşdəli və Keçikli kəndlərinin dağlıq hissəsinin meşə örtüyündə iberiya palıdı (*Quercus iberica*) və Qafqaz vələsi (*Carpinus caucasica*), ardıcın iki növü – ağıriyli ardıc (*J.foetidissima*), alçaqboylu ardıc (*Juniperus depressa* Stev.) və kütyarpaq saqqızağacı (*Pistacia mutica*) müşahidə edilmişdir. Qoturbulaq ərazisində qarışıq çinarlıqlarda qoz, söyüd, göyrüş, ağcaqayın, dağdağan, tut, qovaq, otvari kəndalaş bitkiləri meşənin əsas tərkib hissəsi olmuşdur. Məmmədbəyli kənd ərazisindən palıd cinsinə aid üç növdən nümunə götürülmüşdür, yemişan, itburnu, murdarça, quru-bozqır, dağ kserofil bitkiləri, kolluqlar, qaratikan, əzgil, dovşanalması, ortaboy acılıq, qatırquyruğu acılıq və s. rast gəlinib. 800 m-dən 1400 m yüksəklərdə, Sürtün massivində dağ badamı (*Amygdalus fenzliana*), nairi badamı (*Amygdalis narica*), kütyarpaq saqqızağacı (*P.mutica*), iberiya ağcaqayını (*A.iberica*), ağıriyli ardıc (*J.foetidissima*) və çoxmeyvəli ardıc (*J.polycarpos*) ilə qarışıq ağaclıqlar təbii halda yayılıb. Çox yerdə meşəaltı kimi topulqa (*Spiraea sp.*) üstünlük təşkil edir. Qaratikan (*Paliurus spina-christij*), tamkənaryarpaq dovşanalması (*Cotoneaster integerrimus*), qarameyvəli dovşanalması (*Cotoneaster melanocarpus*), pallas murdarçası (*Rhamnus pallasii*), ağıriyli ardıc (*J.foetidissima*), sıxçiçək zirinc (*Berberis densiflora*), itburnu (*Rosa sp.*) cinslərinə aid bir çox növlərə rast gəlinir. Meşənin ot örtüyündə əsasən yovşan (*Artemisia sp.*), daşdayan (*Andropogon sp.*), məryəmnoxudu (*Teucrium sp.*), kəklikotu (*Thymus sp.),* solmazçiçəyi (*Xeranthemum sp.*), qaratikan, çaytikanı, itburnu, dovşanalması, həmçinin cincilim (*Stellaria medi*a), qırtıc (*Poaannua*) ətirşah (*Geranium molle*), gicitkan (*Urtica dioica*), kəndalaş (*Sambucus ebulus*), zəncirotu (*Taraxacum vulgare*) və s. cinslərə aid növlərin təbii halda yayıldığı qeyd edilmişdir. Adi nar (*Punica granatum*) tədqiqat aparılan bütün ərazidə müşahidə edilmişdir. Zəngilan rayonu ərazisində şərq çinarı, adi qoz, qarışıq ağaclıq yaradılır. Bu ağac növləri meşəliyin I yarusunu tutur. II yarusda dağdağan və püstə, iydə, çay kənarında qovaq, söyüd, qarağac, uzunsaplaq palıd növü yayılmışdır. Bəzən meşəaltı kimi topulqa, kol jasmini, əzgil, yemişan, qaratikan, dovşanalması, pallas murdarçası, ardıc, zirinc, itburnu və s. kolları işçi qrupu tərəfindən qeyd edildi. Ot örtüyü fəsli və iqlimi nəzərə alınmaqla seyrəklik təşkil edir, həmin arealda yovşan (*Artemisia sp.*), daşdayan (*Andropogon sp.*), məryəmnoxudu (*Teucrium sp.*), gicitkan (*Urtica dioica*), topa halında otşəkilli kəndalaş (*Sambucus ebulus*), zəncirotu (*Taraxacum vulgare*), kəklikotu (*Thymus sp.*) və tək-tək solmazçiçəyi (*Xeranthemum sp.*), bənövşə (*Viola* L.) və s. qeyd edilmişdir.

Tədqiqat ərazisi flora biomüxtəlifliyi baxımından cox zəngin olmaqla, öz relyef quruluşuna görə nadir bitkilər müxtəlif bitkilik tiplərində cəmləşmişdir.